# Şəyirdlik — klassik Azərbaycan sosial sistemində təhsil, təlim-tərbiyə metodu kimi

Müəllif **Əkbər N. Nəcəf**
Orta əsrlər ümumi Türk tarixi tədqiqatçısı. Azərbaycan, Bakı.
E-mail: ekbernecef@gmail.com
https://orcid.org/0000-0003-4075-0300

Annotasiya *Şagird* sözünün şifahi ədəbiyyatımızdakı arxaik ifadə forması olan *şəyirdlik* klassik təlim sistemində peşə tərbiyəsi metodunun adıdır. Orta əsr türkdilli mənbələrdə *çıraq* adlandırılan bu metodun yaranma tarixi qədim Misir və Mesopotamiya dövrünə qədər uzanır. Əsasən, uşağa əməyi sevdirmək və peşə öyrətmək mexanizmi olan bu qədim təlim forması daha sonra sənətin hər sahəsində tətbiq edilmişdir. Nəticədə qədim və orta əsrlər tariximizdə *usta-çıraq* və ya *usta-şəyird* adlandırılan xüsusi bir münasibət sistemi formalaşmışdır. Ölkəmizdə, əsasən, *aşıq* sənətində qorunan belə öyrənmə metodu bir çox Şərq ölkələrində başlıca peşə tərbiyə metodu olaraq bu gün də davam edir. Kapitalizmdən əvvəlki əmək əlaqələrinin homogen olmayan öyrənmə nisbətini təşkil edən şəyirdliyin həyat münasibətlərinin davamlılığından yarandığı iddia edilir. Məsləki bir fəaliyyət və biliyin nəsildən-nəslə ötürülməsinin bəsit formasını təşkil edən belə təlim-tərbiyə metoduna demək olar ki, dünyanın bütün mədəniyyətlərində rast gəlinir. Lakin bu təlim-tərbiyə anlayışının müasir rasionalist, praqmatist və marksist iqtisadi nəzəriyyəçilərin və onların fikirlərinə tərəfdar çıxan tədqiqatçıların iddia etdikləri kimi sırf əmək-bilik münasibətlərindən yarandığını güman etmək məsələnin mahiyyətini tam təhlil etmək baxımından problemlidir. Çünki bu münasibət sisteminin dərin rituallara bağlı mistik tərəflərinin olduğuna dair çox sayda tarixi məlumat mövcuddur. Məsələnin tarixi dərinliyini, mövzuya dair müxtəlif elmi yanaşma tərzlərinin olduğunu, zamanla özünün ilkin məna və məzmununu dəyişib, fərqli formalar aldığını diqqətə alaraq bu məqalədə, əsasən, klassik Azərbaycan təhsil sistemində uşaqların təlim-tərbiyə metodu olaraq şəyirdlik üzərində durulması qərarlaşdırlmışdır.

Açar sözlər Şəyirdlik, çıraq, usta, əsnaf, loja, təhsil və s.

http://dx.doi.org/10.29228/edu.19

Məqaləyə istinad: Nəcəf Ə. (2019) *Şəyirdlik — klassik Azərbaycan sosial sistemində təhsil, təlim-tərbiyə metodu kimi.* «Azərbaycan məktəbi». № 2 (687), səh. 185–195.

Məqalə tarixçəsi: Göndərilib — 26.01.2019; Qəbul edilib — 17.04.2019

# The apprenticeship as a method of education and training in the classical Azerbaijan social system

Author **Akbar N. Najaf**
A researcher of general Turkish history of the Middle Ages.
Azerbaijan, Baku. E-mail: ekbernecef@gmail.com
https://orcid.org/0000-0003-4075-0300

Abstract The apprenticeship is a form of expression in our oral literature that is the name of the method of teaching in the classical teaching system. The origin of this method, which is used in medieval Turkic sources as "chiraq" (novice), extends to ancient Egypt and Mesopotamia period. Basically, this ancient form of learning, which is a mechanism for teaching and advising the child, was then applied in every area of art. As a result of this, in ancient and medieval history, it was formed a special system of communication, called "usta-çıraq" (master-apprentice or novice) or "master-student". This method of learning, which is mainly maintained by Ashug (old narrative and musical tradition) art in our country, continues today to be the main method of education in many Eastern countries. It is claimed that pre-capitalist labor relations arose from the continuation of apprenticeship in relations that constitute the proportion of non-homogenous learning. Such a method of teaching and education, which is the basic form of the transmission of knowledge from one generation to another, is found in almost every culture in the world. However, it is difficult to fully comprehend the essence of this issue, as the modern rationalist, pragmatist, and Marxist economic theorists, as well as researchers who support their views, claim that it has emerged only from labor and knowledge relations. Because there is a great deal of historical evidence that this system of attitudes has mystical aspects related to deep rituals. Taking into account the historical depth of the issue, the different scientific approaches to the subject, and the fact that it has changed its original meaning and content over time. in this article it was decided to focus primarily on the Apprenticeship system as a method of teaching children in classical Azerbaijani education.

Keywords Apprenticeship, novice, master, society, lodge, education, etc.

http://dx.doi.org/10.29228/edu.19

To cite this article: Najaf A. (2019) *The apprenticeship as a method of education and training in the classical Azerbaijan social system.* Azerbaijan Journal of Educational Studies. Vol. 687, Issue II, pp. 185–195.

Article history: Received — 26.01.2019; Accepted — 17.04.2019

## Giriş

Qədim Misirdə firon İssinin vəziri olmuş Ptax-Hotep təhsildə əmək fəaliyyətlərinin əhəmiyyətini ilk dəfə vurğulayan təlimçidir. Onun b.e.ə. 2870-ci ildə qələmə aldığı iddia edilən «Dərs kitabı»nda yer alan uşağın zamanına dair açıqlamalarının birində «ən yaxşı metod uşağı çalışdırmaqdır. Çalışan (uşaq) heç bir zaman yararsız olmaz» deyilir. Ptax-Hotepi bu qənaətə gəlməyə vadar edən anlayış Misirin problemli təhsil sistemindən irəli gəlirdi. Belə ki, Qədim Misirdə təhsil ancaq gənclərə aid edilirdi və uşaqların peşə fəaliyyəti ilə məşğul olması təhqir sayılırdı. Ptax-Hotepin başlatdığı təhsil siyasəti nəticəsində Misirdə «tənbəlliklə mübarizə» başlamış və gənclərin uşaq yaşda peşə sahibi olmasını əmr edən qanun çıxarılmışdır (Koçer H.A. 1971, s. 19, 26).

Oxşar təsəvvürlərə, anlayışlara və fikirlərə Qədim Çin, hind və yunan mədəniyyətlərində də rast gəlinir. Məsələn, Konfutsi təhsildə «oyun nəzəriyyəsi»nin memarı hesab olunur. Onun fikrincə, «oyun oynamaq, heç bir şey etməməkdən daha faydalıdır». Buna baxmayaraq, Konfutsi fəlsəfəsində bir peşəni öyrənmək məslək hesab edilmir (Sena C. 1976, s. 137). Digər bir çinli filosof Kuan-Tzu isə (b.e.ə.VIII əsr) təhsilin əhəmiyyətinə diqqət çəkərək, onu hər cür əmək fəaliyyətindən üstün hesab etmiş, «əgər bir il sonranı düşünsən buğda ək, 100 il sonranı düşünsən xalqa təhsil ver» deyilmişdir.

Qədim Yunanıstanın şəhər dövlətlərində uşaq yaşdan insanların peşə fəaliyyəti ilə məşğul olmasına dair məlumatlar mövcud olsa da, antik fəlsəfədə belə fəaliyyətlər müsbət qarşılanmamışdır. Aristotel və Platon sənət və peşə təhsilinin azad insanlara deyil, qullara layiq olduğunu qeyd edirdilər. Onlara görə, ən ali təhsil *«bədən tərbiyəsi»*dir. Antik filosofların «bədən tərbiyəsi» adlandırdıqları təhsil anlayışı müasir mənasından tamamilə fərqlidir. *«Gnothi seaton»,* yəni «özünüdərk» adlandırılan bu tərbiyə metodu dərin mistik, metodik və fəlsəfi öyrənmə sisteminə əsaslanırdı (Koçer H.A. 1980, s. 216).

Yunan filosoflarından fərqli olaraq Roma fikir adamları uşaqların, xüsusilə də oğlanların peşə fəaliyyətləri ilə məşğuliyyətinin əhəmiyyətinə geniş yer veriblər. Belə filosoflardan olan Siseron, uşaqların hər hansı bir peşəyə meylində onların maraq, istək və bacarıqlarının sərbəst formalaşmasına diqqət çəkib. O, yunan filosoflarının bədən tərbiyəsində əsas qəbul etdikləri *fiziki-ruhi* təhsil metodu ilə yanaşı, insanda uşaq yaşlarından əmək qabiliyyətini formalaşdıran məsləki təhsil öyrənilməsini şərt qəbul edib (Arslan A.1995, s. 2).

Peşə təhsilinə dair yuxarıda gətirilən sitatlar ancaq cəmiyyətin müəyyən təbəqəsini əhatə edirdi. Buna görə də həmin açıqlamaları ümumi pedaqoji anlayış çərçivəsində qiymətləndirmək doğru deyildir.

Bir sənətin «şəyirdlik» anlayışı içində bütün uşaqlara öyrədilməsini başlıca həyat tərzi halına gətirənlər hunlar olublar. Qədim türk xalqı olan hunlar üçün yeganə fəaliyyət tərzi *əsgərlik* idi. Buna görə də Hun cəmiyyətində hərbi təhsil 4 yaşından başlayırdı. Hun iqtisadi, hərbi və sosial həyatının əsasını təşkil edən əsgəri təhsil

hamıya şamil edilirdi və hər uşaq (əsasən oğlanlar) sərbəst danışmağı və hərəkət etməyi bacardığı 4 yaşından etibarən hərb sənətini öyrənmək məcburiyyətində idilər. Qədim Çin mənbələrində hunların sosial həyatından bəhs edilərkən «azyaşlı oğlan uşaqlarının qoyuna minib, yay və oxla quşları və çöl sıçanlarını ovlamağa başladıqları» qeyd edilir. Bir növ oyun məntiqi içində icra olunan bu hərbi təlimlər nəticəsində uşaq yetişkənlik yaşına çatdığında (12-14 yaşı) artıq döyüşlərdə iştirak etmək səviyyəsində olan əsgər hesab edilirdi. Belə ki, qeyd olunan mənbədə, ov-ovçu və oyun münasibətləri əsasında qurulan hərbi təlimlərdə uşağın mərhələli şəkildə peşəkar əsgər səviyyəsinə gəldiyindən bəhs olunur. Məsələn, hunlarda artıq 10 yaşlı uşaqlar gündəlik azuqələrini özləri əldə edəcək dərəcədə mahir ovçuya çevrilirdilər (Watson B. 1993, s. 129).

Hunlarda kimliyindən və sinfi mənsubiyyətindən aslı olmadan əsgərə cəmiyyətin yuxarı təbəqəsində yer verildiyindən «ərgənlik imtahanları»na qədər hər yetişkən uşaq bir döyüşçü kimliyini əldə etmək üçün bütün bacarığı ilə çalışırdı. «Dədə-Qorqud oğuznaməsi»ndəki Buğacın dəvə ilə güləş səhnəsində təsvir olunan imtahanlar gənclərin öz «kişiliklərini təsdiq etdirmək» mənasına gəldiyindən, icra olunan belə təlim-tərbiyə sistemlərinin ritual və mistik tərəfləri son dərəcə güclü idi. Məsələn, daha sonrakı mərhələdə Dədə Qorqud kimi obrazlara çevrilən qədim kamlar (şamanlar), baxşılar və ozanlar ərgənlik imtahanlarını keçmək üçün uşaqların təlim və tərbiyə prosesində birbaşa rol oynayırdılar. Bu proses olduqca dramatik və ritual görüntülər, şənliklər, oyunlar və sınaqlarla yadda qalırdı. Belə təlim formalarının XX əsrin əvvəllərinə qədər Qafqazın müsəlman xalqlarında davam etdiyinə dair çox sayda folklor nümunələri mövcuddur. Xüsusilə də, Azərbaycan uşaq oyunlarında həmin hərbi təlim-tərbiyə sisteminin ilkin və ibtidai şəkillərini müşahidə etmək təbiidir.

### Şəyirdliyin ortaya çıxması

«Şəyirdlik» adı altında peşə fəaliyyətlərinin genişlənib cəmiyyətdə başlıca sosial-məsləki tərbiyə metoduna çevrildiyinə dair məlumatlar VI-VII əsrdən etibarən artır. Bu məlumatlar bizə, şəyirdliklə bağlı elmi yanaşmaların və anlayışların iqtisadi münasibətlərin inkişafı ilə paralel formalaşmağa başladığını deməyə əsas verir.

«Şagird» sözünün şifahi ədəbiyyatda səsləniş forması olan şəyirdliyin Göytürk iqtisadi mədəniyyət mühitindən çıxdığı aydın olur. Belə ki, *şagird* sözü ilk dəfə İran mənşəli xalq olan soğdların dilində təsbit edilmiş, daha sonra fars və türk dillərində geniş istifadə olunmuşdur. Türk xaqanlığının (VI-VIII əsrlər) nəzarəti altında olan bu xalqın təməl məşğuliyyəti ticarət idi. Uşaq yaşından öz övladlarına ticarət məsləyini öyrədən soğdlar Çindən Aralıq dənizinə qədər İpək Yolu üzərində fəaliyyət göstərən ilkin orta əsrlərin ən mahir tacirləri hesab olunurdular. Bütün təlim-tərbiyə sistemlərini ticarətdən qazandıqları vəsaitlə inşa edən soğdlar İpək Yolunda böyük pul dövriyyəsini öz əllərində tuturdular. Onlara aid tapılan yazılı sənədlərdə həmin ticarət münasibətlərinin dərinliyini və çoxşaxəliliyini görmək mümkündür.

Soğdlara görə hər soğdlu hələ uşaq yaşından ticarətin praktik qaydalarını öyrənməli idi. Həmin şagird artıq gənclik yaşına gəldiyində öz fəaliyyətlərini sərbəst idarə edəcək səviyyədə ticarət məsləyinə yiyələnmiş olurdu. Bu məsləki peşə fəaliyyəti usta bir tacirin yanında və onun nəzarətində başlayır, şəyirdliyin ilk təməl mərhələsi beş il davam edirdi. Bu öyrənmə mərhələsini tamamlayan şəyird ustasının nəzarəti altında öz iş yerini açmaq imkanı qazanırdı. Şəyirdliyin müddətinə və nizamına dair dəqiq və mütləq metodik təsəvvürlər yoxdur. Məsələn, şəyirdin öyrənmək, qavramaq və tətbiq etmək bacarığına və qabiliyyətinə bağlı idi. Bu peşə təhsili sonunda Çində böyük ticarət koloniyalarına sahib soğdlu tacirlər arasında 16 yaşlı gənclərə rast gəlmək təbii hal idi (Çeşmeli İ. 2007, s. 131).

VII əsrin ortalarından etibarən İslamın sürətlə yayılması istehsalat münasibətlərinə də güclü təsir göstərdi. İslam dini ticarətə geniş imkanlar yaratdığından Çin, Bizans və Sasanilər kimi böyük imperiyalarda aşağı sinif hesab olunan tacirlərin sosial statusunu tamamilə dəyişdirdi. Formalaşan yeni iqtisadi sistemdə şəhərlər və ölkələr iqtisadi baxımdan bir-biri ilə güclü əlaqələr yaratmış, bunun nəticəsində iqtisadi münasibətlərin bazası və iqtisadi sahələrin növləri yaranmışdır. Y.Gözəlovanın da qeyd etdiyi kimi «Qərbi Avropa şəhərləri ilə müqayisədə Xilafət şəhərlərinin inkişafının sürətlə getməsi təbii idi: bu şəhərlər V-VII əsrlərdə sənətkarlığın, geniş xammal bazarının və nəhayət, beynəlxalq ticarətin əsas mərkəzi olmuşdu. Onlar üçün yenidən dirçəlmək, şəhər təsərrüfatının inkişafına xeyli demokratik münasibəti olan cəmiyyətlə uzlaşmaq çətin deyildir. Üstəlik, Xilafət beynəlxalq ticarət yollarının əhəmiyyətli qovşaqlarını vahid iqtisadi tərkibə qatmışdı ki, bu da şəhərlərin inkişafı üçün mütərəqqi amil olmaya bilməzdi» (Gözəlova Y. 2011, s. 107).

İqtisadi həyatda baş verən böyük canlanma, xüsusilə də ticarətin sürətlə inkişafı istehsalat münasibətlərinin həcmini əvvəlki dövrlərlə müqayisə olunmayacaq dərəcədə artırdı. Belə bir vəziyyətdə insan əməyinə olan böyük tələbat əvvəlki iş sahələrinin inkişafı, yenilərinin yaranması və işçi sinfinin aktivləşməsinə təkan verdi. Xüsusilə də ailə və ailələr arası əmək fəaliyyətləri məsləki formalar alıb ixtisaslaşmaya səbəb oldu. Bu dövrdə bir istehsalat sahəsində ixtisaslaşanlar 8-10 nəsil boyunca həmin sahədə fəaliyyət göstərərək məsləkləşən ailələrin əsasını qoydular. Orta əsrlərdə 6-7 nəsil ailə məsləyi xarratlıq, papaqçılıq, dülgərlik, şüşəbəndlik, dəmirçilik, dəriçilik, ipəkçilik və s. olan ailələrdən bəhs edilir. Həmin ailələr erkən yaşlardan öz uşaqlarını ata və ya ailə məsləyi hesab olunan ixtisasa uyğun yetişdirir, bir məslək ənənəvi qaydalarda bir nəsildən digərinə ötürüləsək davam etdirilirdi. Bu sistemdə ixtisas təhsili, təlimi və tərbiyəsi şəyirdlik adlandırılan metod əsasında aparılırdı. Zamanla bu təlim-tərbiyə metodu geniş şəkil alaraq ailədaxili ixtisaslaşmadan çıxıb, bir həyat anlayışına çevrilmişdir. Belə ki, əvvəllər sadəcə, öz övladlarını yetişdirən ustalar iş imkanlarını artırdıqca işçi gücünə olan tələb nisbətində, əsasən, yaxın olduqları və inandıqları ailələrin gənc təbəqəsinin əmək qabiliyyətindən də istifadə etməyə başladılar. Artıq IX-X əsrlərdə Azərbaycanda uşağını erkən yaşdan şəyird olaraq bir ustaya vermək ənənəsi formalaşmışdı. Hətta

şəyirdlik o qədər geniş yayılmışdı ki, hər sahənin öz şəyird profilləri formalaşmışdır. Dəmirçi şəyirdi, dülgər şəyirdi, bərbər şəyirdi olmaq cəmiyyətdə bir ictimai statusa çevrilmişdir.

## Şəyirdlik mərhələsi

İstehsalat münasibətlərində orta əsrlərdə çox işlədilən terminlə *əsnaf* təşkilatlanmaları hələ ilkin feodal sistemlərində formalaşmışdır. Orta əsr müsəlman cəmiyyətlərində əsnaf adlandırılan bu təşkilatlanmalar *kooperasiyaların* ilkin formasıdır. Latınca «cooperatio» adlanan və mənası «birlik» olan təşkilatlanmalar hələ Bizans dövründə mövcud idi. Əmək təşkilatının xüsusi forması olan əsnaf, loja və kooperasiyalarda «çox sayda adam eyni əmək prosesində, yaxud müxtəlif, lakin bir-birilə bağlı əmək prosesində müntəzəm və birgə iştirak edirdilər» (Azərbaycan dilinin izahlı lüğəti. 2006, s. 736).

Bir əsnaf təşkilatının başında usta mütləq hakim statusunda yer alırdı. Ustaların köməkçiləri *qalfalar,* işçi və tələbələri isə *çıraqlar* və ya *şəyirdlər* adlanırdı. Əsasında məsləki olan belə təşkilatların əxlaqi və dini missiyaları mövcud idi. Belə ki, orta əsrlər Şərqində, o cümlədən Azərbaycanda hər əsnaf təşkilatı bir təriqətə və ya dini camaata bağlı idi. Əslində, hər əsnaf təşkilatı özü bir ailə sayılırdı. Ailənin fərdləri isə «qardaş» hesab olunurdular. XII əsrdən etibarən Azərbaycan, Xorasan, Anadolu və Suriyada güclü təşkilatlanma prosesi keçirən *fütüvvət* və *əxi* qruplaşmaları həmin əsnaf təşkilatlarına ən yaxşı nümunədir.

Əsnaf ocaqlarında iqtisadi və ya əmək fəaliyyətləri qazanc prinsipinə deyil, vəzifə prinsipinə əsaslanırdı. Ona verilən işi ən yaxşı icra edən qardaş seçilir, təşkilat daxilində bir üst mərtəbəyə çıxarılırdı. Bir növ, ləyaqət prinsipləri əsasında fəaliyyət göstərən bu təşkilatlarda qazanc keyfiyyət və kəmiyyətin paralel aparılmasına bağlı idi. Əsnaf sistemi ailəyə daxil edilən hər fərdin hüquqlarının ciddi şəkildə qorunduğu bir sistemdir (Karaaslan P. 2012, s. 9). Çünki əsnaf təşkilatlanmalarının fəaliyyəti ümumi hüquq normativləri tərəfindən müəyyən edildiyindən üləmanın, vəqflərin və dövlətin həmin hüquq çərçivəsində onlara müdaxilə etmək haqqı vardı. Ayrıca əsnaf təşkilatlanmaları həm iqtisadi, həm mənəvi, həm də güc baxımından öz nüfuzunu qorumaq istədikləri üçün üzvlük sisteminə ciddi nəzarət olunurdu.

Ümumiyyətlə, orta əsrlərdə insanın cəmiyyətdə fərd kimi qəbul edilmə yaşı indiki dövrlə müqayisədə çox aşağı idi. Yəni indiki dövrdə 18 yaşını tamamlamış hər insan fərdi səlahiyyətlərə malik hüquqi vətəndaş qəbul edildiyi halda, orta əsrlərdə bu yaş həddi 8-12 arasında dəyişirdi. 8 yaşını tamamlamış hər insan fiziki qüsurlu olmadığı və elmi təhsil həyatını davam etdirmədiyi halda iş həyatına atılıb öz əməyi ilə öz ehtiyaclarını təmin etməli idi. Buna görə də orta əsrlər İslam dünyasında 8-10 yaşlarında hər bir uşaq əmək fəaliyyətinə başlayırdı. Uşağın həm əxlaqi, həm savad, həm də məsləki baxımdan inkişafı üçün ailələrin birinci dərəcədə inandıqları yerlər əsnaf təşkilatları, lojalar və sənətkar ocaqları idi. Belə yerlərdə fəaliyyətə başlayan uşaqlar ümumi bir adla şəyird və ya çıraq adlanırdılar.

Şəyirdlik müddəti 2-7 il arasında dəyişirdi. Əsnaf təşkilatlarında bacarığına, qabiliyyətinə, xüsusilə də məharətinə görə şəyirdlərin ən üst mərtəbəyə yüksəlməsinin qarşısında heç bir maneə yox idi. Yəni 10 yaşında əmək fəaliyyətinə başlayan bir uşaq ən qısa müddətdə qalfa, usta köməkçisi və usta səviyyəsinə gələ bilərdi. Yəni şəyirdlik, sözün həqiqi mənasında, şəxsiyyət formalaşdırırdı. Əxi təşkilatlarının qurucusu qəbul edilən Xacə Nəsirəddin Evrən Xoyi «Sultanlara nəsihət» adlı əsərində bu sistemin varlığını cəmiyyətin özünün daxili tələbatını qarşılaması ilə izah edir. Onun açıqlamasından belə məlum olur ki, əsnaf təşkilatları, bir növ, «qeyri-hökumət təşkilatı» kimi fəaliyyət göstərməli idi. Əxi Evrənə görə «cəmiyyət müxtəlif sənət sahələrində fəaliyyət göstərən insanlara möhtac olduğuna görə həmin sənət sahələrini fəaliyyət halında tutan çox sayda insanların müəyyən bir yerdə toplaşmaları və hər birinin sənətin bir sahəsi ilə məşğul olması lazımdır ki, cəmiyyətin bütün ehtiyacları qarşılanmış olsun» (Bayram M. 1986, s. 175-176).

Klassik Azərbaycan əmək sistemində bir ustanın yanında fəaliyyətə başlayan şəyirdin məslək öyrənmə prosesi primitiv işlərin icrası ilə başlayırdı. Bir sənətə qəbul edilən şəyirdə əvvəlcə ümumi nizam-intizam qaydaları təlim edilirdi. Hər şəyird, ilk növbədə, zaman qaydalarına, yəni gün ərzində işə başlamaq, fasilə, ibadət, yemək və söhbət vaxtlarına uyğun hərəkət etməli idi. Şəyirdlik həyatını dini-ictimai prinsiplər müəyyən edirdi. Davamında məslək funksiyalarının öyrədilməsi gəlirdi. Hər şəyird bir qalfanın nəzarətində idi. Qalfa onun əmək fəaliyyəti qədər davranış qaydalarını öyrənməsindən də məsul idi. Yəni şəyirdik formal (rəsmi) və enformal (ənənvi) olmaqla iki təlimli mərhələdən keçirdi  (Güllülü S. 1989, s. 8).

Orta əsrlərin əxi təşkilatlarında şəyirdlik müddəti, əsasən, 1001 gün olaraq göstərilib. Bəzi mənbələr təxmini olaraq bu müddəti 3 il olaraq qeyd edirlər. Əslində, şəyirdlik bir uşağın təlim həyatının ikinci mərhələsini təşkil edirdi. Uşaq şəyirdliyə başlamadan əvvəl *yamaqlıq* adlanan bir mərhələdən keçirilirdi. Yamaqlıq mərhələsi 2 il davam edir və bu müddət ərzində fəaliyyəti müqabilində uşağa və ailəsinə əmək haqqı ödənilmirdi. Uşaq bu mərhələni tamamladıqdan sonra şəyirdliyə qəbul olunurdu. Şəyirdlər bir məsləyin incəliklərinə nə qədər tez yiyələnsələr, o qədər tez müstəqil ticarət həyatına atılırdılar. Əgər bir şəyird öz dükan və ya iş yerini açırdısa, o, artıq usta qəbul edilirdi (Güllülü S. 1989, s. 129; s. 27).

Şəyirdliyi uğurla tamamlayanlar sənət növünün bağlı olduğu əsnaf təşkilatına üzv qəbul edilirdilər. Həmin üzvlük sistemi şəyirdin öz iş yerini açması və işlətməsində geniş iqtisadi və mədəni imkanlar yaradırdı. Belə ki, əsnaf üzvləri öz müştərilərinin bəzilərini «qardaş» qəbul etdikləri bu insanların açdıqları yeni iş yerlərinə istiqamətləndirir və onların öz məslək profillərini əldə etmələrinə dəstək olurdular.

## Şəyirdliyin istehsalatdakı rolu

Şəyird qəbullarının sayı onu qəbul edən ustanın iş imkanlarından asılı idi. Bir sənət sahəsinə və ya sənətkarlıq emalatxanasına tələb nə qədər çox olarsa, bu həmin

yerdə çalışan şəyirdlərin sayına da təsir göstəririd. Məsələn, orta əsrlərdə Azərbaycanda şəyirdlərin ən çox olduğu istehsalat sahəsi mədən sənayesi idi. IX-X əsrlərdə Dərbənd yaxınlığında yerləşən Zirəhkəran adlanan kəndin bütün uşaqları şəyird idilər. Şizdə qızıl istehsalatı üçün civəyə böyük ehtiyac olduğundan civə mədənlərində yüzlərlə insan işləyirdi (Zəkəriyya əl-Qəzvini, s. 399).

Eyni mənzərəyə Zəncan və əl-Cibal bölgəsində gümüş mədənlərində də rast gəlinirdi (Qəzvini, s. 383).

Azərbaycan Xilafət və Sacilər dövründən etibarən bütün orta əsrlər boyunca silah sənayesində söz sahibi olmuşdur. Sacilər dövründən etibarən Azərbaycanın özünün silah emal edən mərkəzləri vardı. Qafqaz qılıncları İslam coğrafiyasında çox məşhur idi. Lakzan bölgəsi hər cür silahın emal edildiyi bir sənaye mərkəzi kimi tanınırdı (Bakır A. 2006, s. 579). X əsr müəllifi Məsudi, Şirvan ərazisində silah və zireh növləri istehsal edən Zirehgəran adlı kənddən bəhs edir. Kəndin adı «zireh düzəldən ustalar» mənasına gəlirdi. Türklər həmin kəndə Kubaçi deyirdilər. Qaşqarlı Mahmuda görə, türkcə «zireh» – kübə, yaraq mənasına gəlirdi (Minorskiy V. 1963, s. 203). XI əsr coğrafiyaçısı Əbu Hamid əl-Əndəlüsi Dərbənd ilə Bakı arasında məskunlaşmış Kübəcilər adlanan bir türk tayfasından bəhs edir (Togan A.Z.V. 1981, s. 53).

Əbu Hamid əl-Qranati həmin yeri belə təsvir edir: «Dərbənd yaxınlığında böyük bir dağ var. Onun yamacında iki yaşayış məskəni yer alır. Onların birində «zireh düzəldənlər» mənasında *Zirehgəran* adlanan bir xalq yaşayır. Döyüş üçün zirehlər, miğfərlər (başlıqlar), qılınclar, nizələr, oxlar üçün yaylar, oxlar, xəncərlər və misdən müxtəlif alətlər düzəldirlər. Qadınları, uşaqları, qızları, qulları, cariyələri, bir sözlə, hamısı bu sənətlə məşğuldur. Onların nə əkini var, nə biçinləri, nə də bağçaları. Çoxu mal-mülk sahibi olan bu insanların yanına dünyanın müxtəlif yerindən insanlar öz nemətləri ilə birlikdə gəlir. Dinləri yoxdur və cizyə də vermirlər» (Ebu Hamid Muhammed el-Gırnati`nin Seyahatnamesi. 2010, s.94).

Əbu Hamid əl-Qranatinin Zirehgərandakı silah sənayesində çalışanlar arasında uşaqların adını xüsusilə qeyd etməsi çox mühümdür. Nəzərə alsaq ki, bütün orta əsrlər boyunca Azərbaycan Atabəylər, Elxanilər, Cəlayirlər, Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi kimi böyük dövlətlərin mərkəzi olmuşdur, o zaman mədən, xüsusilə də silah sənayesinin dövlət nəzarətində olduğu və bu sahənin böyük işçi kütləsinə ehtiyac hiss etdiyi ortaya çıxır.

Mükəmməl bir döyüş qılıncı əldə etmək üçün müəyyən proseslərin aparılması vacibdir. Çünki döyüş qılıncı, sadəcə, dəmirin döyülməsi və ona forma verilməsindən ibarət deyildi. Qılıncın düzəldilməsində aşağıda qeyd edilən adlarda çox sayda maddədən istifadə edilirdi (Muhsin Məhəmməd Hüseyin. 1986; 1990, s. 396-397):

• *Xaliləci-kabil və ya terminalia chebula* (*əbləç, mebliç, kabili, əl-əsfar, hindi* adlanan beş növü vardı) adlanan, xalq arasında *qara xəlilə* deyilən zeytungillər sinifindən bir bitki toxumu idi. Bu bitki Əfqanıstan və Hindistanda xüsusi olaraq yetişdirilir və Azərbaycana gətirilirdi.

• *Bəliləc;*

- *Maqnezyum* – ağ torpaq;
- *Şaburqan*;
- *Zərarix* – öldürücü zəhər;
- *Sekamunya* – mahmudə otu olub yapışqan hazırlanırdı;
- *Sünbəd*;
- *Tunkar*;
- *Turş nar qabığı*;
- *Üzərlik*;
- *Kaktus bitkisi*;
- *Avsec ağacının usarəsi (lycium europaeum) – təkə tikanı* adlanan bir bitki;
- *Şarab yağı*;
- *Nişadır*;
- *Dəniz yağı*;
- *Yaş ban ağacının usarəsi.*

Bütün bu məhlulların hazırlanması və bir qılıncın düzəldilməsi üçün silah emalatxanalarında aşağıdakı iş prosesi gedirdi: (Muhsin Məhamməd Hüseyin. s. 270; s. 577)

- *Nərmahən* adlanan dəmirin alınması;
- *17 dirhəm qara xəlilə* və *17 dirhəm bəliləcin* hazırlanması:
- Dəmirin çanaq qab içinə qoyulub, su və duzun qarışığından meydana gələn maddə ilə yuyulması;
- Qara xəlilə və bəliləcin onun üstünə sürtülməsi;
- Dəmirin bir qəlibə tökülüb üstünə 1,5 dirhəmlik maqnezyum əlavə edilməsi;
- Qılınc şəklini alan dəmirin üstünə yumurtanın ağ hissəsinin tökülməsi;
- Soyuması üçün 2 gün gözlədilməsi;
- Qəbzələrin hazırlanması (bəzi qılıncların qəbzəsi timsah dərisindən düzəldilirdi).

Bütün bu işlərin bir dəmirçi emalatxanasında aparılması mümkün olmadığından, silahlar çox sayda usta və işçinin çalışdığı silah zavodlarında düzəldilirdi. Nəzərə almaq lazımdır ki, qeyd edilən maddələrin hazırlanması üçün tibbi-laboratoriyalara ehtiyac vardı. Buna görə də bir qılınc ustası olmaq üçün uşaq yaşlarında əmək fəaliyyətinə başlamaq lazımdı. Deməli, orta əsrlərdə Azərbaycanda silah sənayesində şəyirdlərə böyük tələbat vardı. Digər tərəfdən, Elxanilər dövründə paytaxt Təbrizdə dövlət karxanaları fəaliyyətə başlayanda istedadlı usta dəmirçilər dövlət tərəfindən nəzarətə götürüldülər. Çünki heç bir dövlət öz silahının sirlərinin başqa siyasi güclər tərəfindən öyrənilməsini istəmirdi. Buna görə də silah ustaları davamlı nəzarət altında saxlanılırdı. Bu da öz növbəsində həmin sahəyə böyük marağın olmasına yol açırdı (Onullahi S.M. 1982, s. 48).

Silahdan başqa qumaş, toxuculuq, ipəkçilik, dəriçilik sahəsində də çox sayda şəyirdlər fəaliyyət göstərirdi. Elxanilər, Cəlayirlər, Qaraqoyunlu, Ağqoyunlu və Səfəvilər dövründən onların sayı o qədər çox idi ki, bəzən istehsalatın bir sahəsində minlərlə şəyird fəaliyyət göstərirdi. Buna səbəb adı qeyd edilən dövlətlərin mərkəzi

Azərbaycan olduğu üçün ordunun tələbatının qarşılanması həmin istehsalat sahələrinin canlı qalmasına səbəb olurdu. Bu sahələrdəki ticarət həcminin böyüklüyünü müqayisə etmək baxımından Elxani dövlətinin vəziri Fəzlullah Rəşidəddinin Məcdəddinə yazdığı məktubunun məzmununa nəzər salamaq kifayətdir. Rəşidəddin öz məktubunda «qışda Hindistana hücum ediləcəyi ilə əlaqədar olaraq Təbriz sənətkarlarından qəzildən toxunmuş 200 top parça, paltarlıq üçün 200 top yun parça, keçi tükündən hazırlanmış 300 ədəd belbağı, 200 ədəd baş örpəyi, 2000 arşın müxtəlif rəngli parça, 1000 arşın adi qumaş, 1000 ədəd gödək yun paltar, 2000 cüt tumac çəkmə, samur dərisindən hazırlanmış 2000 ədəd yaxalıq, kürk astarlığı üçün 100 top xəz, 100 top vaşaq dərisi, 2000 top sincab dərici, 200 top qırmızı tülkü dərisi, 1000 dəst paltar alıb göndərilməsini tələb etmişdir» (Onullahi S.M. 1982, s. 47).

Şəyirdlik sadəcə, oğlan uşaqları üçün deyil, qız uşaqları üçün də təlim-təbiyəvi və məsləki həyatı öyrənmənin başlıca yolu hesab olunurdu. Oğlan uşaqlarının öyrənəcəyi məsləklər olduğu kimi, qız uşaqlarının da uşaq yaşdan vaqif olması vacib olan məsləklər mövcud idi. Belə məsləklər, əsasən, toxuculuq, şərbaflıq, yunçuluq, xalçaçılıq və s. hesab olunurdu. Qız uşaqları, əsasən, ailə daxili məsləki fəaliyyətlərdə şəyirdlik edirdilər. Onlar diba, zərbaf, parça, atlaz, darayi, məxməri və b. şərbaflıq sahələrinin incəliklərini usta qadınların yanında öyrənirdilər. Belə sənətləri öyrənmək qızların öz ailə həyatlarını qurmaqda və davam etdirməkdə həyati dərəcədə əhəmiyyətli hesab olunurdu. Nəzərə alsaq ki, XIX əsrdə, sadəcə Şamaxı şəhərində 650 şərbaf dəzgahı, Şirvan kəndlərində isə 50 toxucu dəzgahı fəaliyyət göstərirdi (Mustafayev A. 1991, s. 63), o zaman həmin karxanalarda çox sayda qız şəyirdin çalışdığı aydın olur.

## Nəticə

Klassik Azərbaycan sosial sistemində şəyirdlik bir məsləki kimlik statusu idi. Hətta fütüvvət və əxi təşkilatlarının formalaşmağa başladığı XII əsrdən etibarən şəyirdlik sosial-ictimai kimliyin yaranması və inkişafında başlıca mərhələ hesab olunmağa başlandı. Bir cəmiyyəti əxlaqi, məsləki və tərbiyəvi əsaslar üzərində formalaşdırmaq üçün uşaqların yetişdirilməsinə orta əsrlərdə Azərbaycanda xüsusi diqqət yetirilmiş və bu məqsədlə əmək fəaliyyətlərinə geniş yer verilmişdir. İnsanı formalaşdıran başlıca təlim-təhsil və tərbiyə qaydalarının əsasında əmək fəaliyyətləri dayandığından belə sosial sistemlərdə şəyirdlik ictimai kimliyin inkişafında bünövrə hesab olunurdu.